## Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin 2013-cü ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına dair hesabat MƏRUZƏSİ

(Əvvəli 4-cü səhifədə).

İqtisadiyyatın ümumi inkişafının təmin edilməsi məqsədilə çox sürətlə inkişaf edən sahələr üzrə kadr hazırlığına münasibət bildirən ölkə başçısı gənc kadrların bu işlərə cəlb olunması, onların təhsilinin yüksək səviyyədə təşkili istiqamətində məqsədyönlü işlərin aparıldığını da diqqətə çatdırmışdır.

**Hörmətli yığıncaq iştirakçıları!**

2013-cü ilin birinci rübü ərzində rayonumuzda görülən işlər barədə Sizə qısa məlumat verdim. Ancaq görəcəyimiz işlərin miqyası olduqca böyükdür.

2013-cü il həm də siyasi baxımdan xalqımız üçün xüsusi əhəmiyyət kəsb edən əlamətdar bir tarixdir. Ona görə ki, bu il ölkəmizdə prezident seçkilərinin keçiriləcəyi, xalqımızın və əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan dövlətçiliyimizin qorunmasının, inkişaf etdirilməsinin müəyyənləşdiriləcəyi ildir. Bu qələbəni qazanmaq isə bizim hər birimizin, hər bir qəbələlinin vətəndaşlıq borcudur.

Məruzəmin sonunda bildirmək istəyirəm ki, Qəbələ Rayon İcra Hakimiyyəti qarşıya qoyulan vəzifələrin uğurla yerinə yetirilməsi ilə əlaqədar bütün qüvvələri səfərbər edəcək, yeni nailiyyətlərin qazanılması sahəsində fəaliyyətini genişləndirəcək, üzərinə düşən vəzifələrin icrası istiqamətində bütün lazım gələn tədbirləri həyata keçirəcəkdir.

Çıxışımı möhtərəm Prezidentimiz İlham Əliyevin sözləri ilə bitirmək istəyirəm: "Qəbələdə sosial-iqtisadi inkişaf baxımından, abadlıq və quruculuq işləri sahəsində mühim nailiyyətlər qazanılmışdır. Dağlar diyarının bugünki inkişafı insanlarımızın hər şeyə qadir olduğunu sübut edir".

**Hörmətli yığıncaq iştirakçıları!**

İcazə verin Sizin hər birinizin, bütün qəbələlilərin adından Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevi əmin edim ki, biz həmişə olduğu kimi 2013-cü ildə də yüksək uğurla başa vuracaq, xalqımıza, vətənimizə, dövlətimizə sədaqətlə xidmət edəcəyik.

**Diqqətinizə görə təşəkkür edirəm!**

# Təşkilat komitəsinin iclası

Qəbələ şəhərində "Tour d'Azerbaidjan" beynəlxalq velosiped turunun təşkilat komitəsinin növbəti iclası keçirilib. "Qafqaz Riverside" hotelin konfrans zalında təşkil olunan iclasda Azərbaycan Velosiped İdmanı Federasiyasının rəhbərliyi, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Qobustan və Şamaxı rayonlarının icra hakimiyyətlərinin məsul vəzifəli şəxsləri, rayon polis şöbələri, yol idarələri və yol polisinin əməkdaşları, eləcə də Nəqliyyat Nazirliyinin, "Azəryolservis" ASC-nin, Daxili İşlər Nazirliyinin İctimai təhlükəsizlik Baş İdarəsinin nümayəndələri, "Tour d'Azerbaidjan" veloyürüşünün 2, 3 və 4-cü marşrutlarının keçəcəyi rayonların bələdiyyələrinin təmsilçiləri iştirak ediblər. İclasda "Tour d'Azerbaidjan" beynəlxalq velosiped turu barədə geniş məlumat verilib, fikir mübadiləsi aparılıb, işlərin daha yüksək səviyyədə təşkili istiqamətində vəzifələr müzakirə edilib və mövcud çatışmazlıqların aradan qaldırılmasına dair tapşırıqlar verilib.





Tədbirdə Azərbaycan Respublikası Vergilər Nazirinin müavini Sahib Ələkbərov və Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev iştirak etmişlər.

**Oqtay MƏMMƏDOV.**
**Fotolar S. Umuyevindir.**

### Zərifə Əliyeva—90

# Gözlərə nur verən alim

Aprel ayının 19-da Qəbələ Müalicə-Diaqnostika Mərkəzinin kollektivi görkəmli oftalmoloq alim, dərin əqidə sahibi Zərifə xanım Əliyevanın anadan olmasının 90-cı ildönümünə həsr edilmiş geniş tədbir keçirmişdir. Səhiyyə ocağının həkim və texniki işçiləri əvvəlcə şəhərin Dəmiraparan çayının sahilində yerləşən yaraşıqlı, gül-çiçəkli Zərifə xanım Əliyevanın adını daşıyan parka gələrək burada akademikin ucaldılmış möhtəşəm abidəsi önünə tər gül dəstələri düzmüş və onun əziz xatirəsini hörmət və ehtiramla yad etmişlər.

Sonra tədbir Müalicə-Diaqnostika Mərkəzinin iclas zalında davam etdirildi. Mərkəzin baş həkimi Bəxtiyar Haqverdiyev Zərifə xanım Əliyevanın həyatı və tibb elmi, xüsusilə oftalmologiya sahəsindəki fəaliyyətindən toplantı iştirakçılarına geniş məlumat verdi. O, vurğuladı ki, akademik Zərifə Əliyeva Azərbaycanda tibb elminin inkişafına mühüm töhfələr verərək oftalmoloğiyanın aktual problemlərinə dair sanballı tədqiqatlar aparmış, çoxlu sayda elmi əsərlər yazmışdır. Onun tibbi araşdırmaları respublikamızda oftalmologiya elminin inkişafına böyuk təsir göstərmişdir. Zərifə xanım Əliyevanın tərcümeyi-halı barədə danışan natiq qeyd etdi ki, o, 1923-cü il aprel ayının 28-də Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Şahtaxlı kəndində görkəmli dövlət xadimi və istedadlı səhiyyə təşkilatçısı Əziz Əliyevin ailəsində anadan olmuşdur. 1942-ci ildə orta məktəbi əla qiymətlərlə bitirərək Azərbaycan Dövlət Tibb Universitetinin müalicə-profilaktika fakültəsinə daxil olmuş, 1947-ci ildə həmin universiteti fərqlənmə diplomu ilə bitirərək elmi fəaliyyətə başlamışdır. 1949-cu ildən etibarən Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda elmi işçi kimi çalışmağa başlayır. Gənc alim o dövrdə ölkəmizdə tüğyan edən traxoma və kimya sənayesi müəssisələrində çalışınlarda əmələ gələn göz xəstəliklərinin qarşısını almaq və onun ləğvinə nail olmaq üçün elmi axtarışlar apardı və traxoma xəstəliyini ləğv etdi, kimya sənayesi müəssisələrində işləyən insanları göz xəstəliyindən xilas etdi.

Akademik Zərifə xanım Əliyeva alimlik fəaliyyətindən başqa dövlət əhəmiyyətli işlərlə də məşğul olmuşdur. O, SSRİ-nin Sülhü Müdafiə Komitəsinin üzvü kimi çalışmış, bir sıra xarici ölkələrdə elmi konfranslarda iştirak etmişdir.

Tədbirdə müalicə-profilaktika işləri üzrə mərkəzin baş həkiminin müavini Kamal Məmmədov, YAP Qəbələ Rayon Təşkilatının Müalicə-Diaqnostika Mərkəzinin partiya təşkilatının sədri İlkin Mikayılzadə çıxış etmişlər. Onlar gözlərə nur verən akademik Zərifə xanımın tibb elminin, xüsusilə oftalmologiya sahəsindəki dəyərli xidmətlərindən ətraflı danışdılar.

Yığıncaqda iştirak edən rayon icra hakimiyyətinin məsul işçisi Zahid Əfəndiyev Zərifə xanım Əliyevanın həyat və fəaliyyətindən geniş söhbət açdı və yığıncağı yekunlaşdırdı.

**Aslan CƏLİLOV.**